# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/4** **29 yanvar 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.3-cü "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili" bəndində nəzərdə tutulan tədbirlərin Qrafiki barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.3-cü "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili" bəndində nəzərdə tutulan tədbirlərin icrasının təmin edilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.3-cü "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili" bəndində nəzərdə tutulan tədbirlərin Qrafiki təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, N.Talıbov, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, R.Cəfərli, F.Məmmədov) tapşırılsın ki, qrafikdə nəzərdə tutulan tədbirlərin vaxtında icra edilməsini təmin etsinlər.
3. Bu qərarın mətni və 2016-cı ildə nəzərdə tutulan tədbirlərin Qrafiki Palatanın internet səhifəsində yerləşdirilsin.
4. Sərəncamın icrasına nəzarət Aparatın rəhbəri Q.Bayramova həvalə edilsin.

**PALATANIN SƏDRİ** **V. NOVRUZOV**